**“DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR”**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Uçot İdarəsi

QEYDİYYAT № ___________

“____” ____________ 2026-cı il

İdarə rəisi __________

**“TƏSDİQ EDİLMİŞDİR”**

“KollektA”
Açıq Səhmdar Cəmiyyətinin

Səhmdarlarının 01 may 2026-cı il tarixli qərarı ilə

Səhmdarlar:

__________ Mədəd Rüstəmov

__________ Camal Aydınov

__________ Rəşad Səlimov

# “ KOLLEKTA “

# AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN

# NİZAMNAMƏSİ

**Bakı-2026**

## 1. Ümumi müddəalar

1.1. "KollektA" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət adlandırılacaq) müstəqil təsərrüfat subyekti olmaqla, öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qüvvədə olan digər qanunvericilik aktları və bu nizamnamə əsasında həyata keçirir və əsas məqsədi mənfəət götürməkdən ibarət olan kommersiya təşkilatıdır.

1.2. Cəmiyyət 09.10.2024-cü il tarixdə dövlət qeydiyyatına alınmış "KollektA" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN: 1506966161) yenidən təşkil olunması nəticəsində yaranmış və onun hüquqi varisidir.

1.3. Cəmiyyətin hüquqi ünvanı: AZ1052, Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli, ev 1963.

## 2. Cəmiyyətin fəaliyyəti

2.1. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.

## 3. Cəmiyyətin nizamnamə kapitalı

3.1. Cəmiyyətin nizamnamə kapitalının miqdarı 4100 (dörd min yüz) manat, hər birinin nominal dəyəri 410 (dörd yüz on) manat olmaqla 10 (on) ədəd adi, adlı, sənədsiz səhmlərdən ibarətdir.

3.1.1. Rüstəmov Mədəd Nadir oğlu – 1640 (bir min altı yüz qırx) manat, 4 (dörd) ədəd adi adlı sənədsiz səhm;

3.1.2. Aydınov Camal İsax oğlu- 1640 (bir min altı yüz qırx) manat, 4 (dörd) ədəd adi adlı sənədsiz səhm;

3.1.3. Səlimov Rəşad Mais oğlu- 820 (səkkiz yüz iyirmi) manat, 2 (iki) ədəd adi adlı sənədsiz səhm.

3.2. Cəmiyyət nizamnamə kapitalının ümumi həcminin 25%-dən çox olmamaq şərti ilə imtiyazlı səhmlər buraxmaq hüququna malikdir.

## 4. Cəmiyyətin idarəetmə orqanları

### 4.1 Səhmdarların Ümumi Yığıncağı:

4.1.1 Cəmiyyətin Ali İdarəemə Orqanı onun səhmdarlarının Ümumi Yığıncağıdır (bundan sonra «Ümumi Yığıncaq» adlanacaq). Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər.

4.1.2 Növbəti Ümumi Yığıncaq ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (illik Ümumi Yığıncaq).

4.1.3 İllik Ümumi Yığıncaq maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq müşahidə şurası tərəfindən çağırılır və bu barədə səhmdarlara məlumat verilir. Cəmiyyətin müşahidə şurası olmadıqda illik Ümumi Yığıncağın çağırılması icra orqanı tərəfindən həyata keçirilir.

4.1.4 Ümumi Yığıncağın çağırılmasına qırx beş gün qalmış yığıncağın çağırılması barədə kütləvi informasiya vasitələri ilə məlumat verilməli, habelə səhmdarlara bu barədə yazılı bildiriş göndərilməlidir.

4.1.5 Ümumi Yığıncağın çağırılması barədə bildirişdə aşağıdakılar göstərilməlidir:

- Cəmiyyətin adı və olduğu yer;
- Ümumi Yığıncağın keçirilmə tarixi, vaxtı və ünvanı;
- Ümumi Yığıncağın gündəliyi;
- Ümumi Yığıncağının gündəliyi üzrə materiallarla tanış oluma qaydası.

4.1.6 Ümumi Yığıncağın müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

- Cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- Cəmiyyətin müşahidə şurasının üzvlərini seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Cəmiyyətin icra orqanını yaratmaq və onunu səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- İcra orqanının səlahiyyətlərinin müqaviləyə əsasən kənar idarəçiyə vermək;
- Cəmiyyətin illik hesabatlarını və mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;
- mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək;
- xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar qəbul etmək. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir.
- Cəmiyyətin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək.
- digər hüquqi şəxslərin kapitalında cəmiyyətin iştirakı barədə qərarlar qəbul etmək;

4.1.7 Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən Cəmiyyətin icra orqanına verilə bilməz.

4.1.8 Bu nizamnamə ilə Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlərlə yanaşı Ümumi Yığıncaq nizamnamədə müəyyən edilmədiyindən asılı olmayaraq, Cəmiyyətin fəaliyyəti ilə əlaqədar istənilən məsələni müzakirə və qərarlar qəbul edə bilər.

4.1.9 Səsli səhmlərin 60 faizinin sahibləri iştirak etdikdə Ümumi Yığıncaq səlahiyyətlidir.

4.1.10 Ümumi Yığıncaqda yetərsay olmadıqda, Ümumi Yığıncaq bu Nizamnamə ilə müəyyən edilmiş qaydada yenidən çağırılmalıdır. Bu zaman Ümumi Yığıncağın gündəliyi dəyişdirilməməlidir. Yenidən çağırılan ümumi Yığıncaq səsli səhmlərin 40 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir.

4.1.11 Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, Ümumi Yığıncaq bu Nizamnamə ilə müəyyən edilmiş qaydada, gündəliyi dəyişdirilmədən təkrarən çağırılmalıdır. Təkrarən çağırılan Ümumi Yığıncaq səsli səhmlərin 25 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir.

4.1.12 Bu Nizamnamənin 4.1.11-ci bəndinə əsasən, təkrarən çağırılan Ümumi Yığıncağın keçirilməsi üçün yetərsay təmin olunmadıqda, Cəmiyyət qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanına məlumat verərək, yetərsaydan asılı olmadan Ümumi Yığıncağın qərarı ilə və ya müvafiq icra hakimiyyəti orqanının iddiası əsasında məhkəmənin qərarı ilə ləğv edilə bilər. Səhmdarların Cəmiyyətin ləğv edilməsi haqqında Ümumi Yığıncağın qərarından məhkəməyə şikayət etmək hüququ vardır.

4.1.13 Ümumi Yığıncaqda səsvermə «bir səsli səhm - bir səsdir» prinsipi əsasında həyata keçirilir.

4.1.14 Cəmiyyətin yenidən təşkili, ləğvi, nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar Ümumi Yığıncaqda səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu, digər məsələlər barədə qərarlar isə sadə səs çoxluğu ilə qəbul edilir.

4.1.15 Növbədənkənar Ümumi Yığıncaq müşahidə şurasının öz təşəbbüsü və ya səsli səhmlərin on faizinə malik olan səhmdarların yazılı tələbi ilə icra orqanı tərəfindən çağırılır.

4.1.16 Növbədənkənar Ümumi Yığıncağın çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər yığıncağın gündəliyinə mütləq salınmalıdır.

4.1.17 Növbədənkənar Ümumi Yığıncağın çağırılması haqqında tələbin daxil olduğu gündən etibarən icra orqanı aşağıdakıları yerinə yetirməlidir:

- üç iş günü müddətində Ümumi Yığıncağın vaxtını və yerini təyin edib, bu barədə kütləvi informasiya vasitələrində elan verməlidir;
- beş iş günü müddətində Ümumi Yığıncağının çağırılması barədə bildirişləri səhmdarlara göndərməlidir;
- otuz gündən tez, qırx beş gündən gec olmayaraq, Ümumi Yığıncağın keçirilməsini təmin etməlidir.

4.1.18 Ümumi Yığıncağa səhmdarların səs çoxluğu ilə seçilən sədr sədrlik edir.

4.1.19 Ümumi Yığıncağın bütün iclasları protokollaşdırılır, yığıncaq bitdikdən sonra üç iş günündən gec olmayaraq iki nüsxədə tərtib olunur, Ümumi Yığıncağın sədri və katibi tərəfindən imzalandıqdan sonra Cəmiyyətin möhürü ilə təsdiq edilir və hər il üzrə uçotu aparılır.

4.1.20 Cəmiyyətin səhmdarları və ya onların səlahiyyətli nümayəndələri iclasın protokolları ilə tanış ola bilərlər. Ümumi Yığıncağın Protokolunda aşağıdakılar göstərilir:

- Ümumi Yığıncağın keçirilmə vaxtı və yeri;
- Ümumi Yığıncağın gündəliyi;
- Ümumi Yığıncağın iştirakçılarının səhm müqabildə səslərinin sayı;
- iştirak edən səsvermə hüququna malik olan səhmdarların sayı;
- çıxışların xülasəsi;
- səsə qoyulan hər bir məsələ üzrə səsvermənin nəticələri;
- Ümumi Yığıncaq tərəfindən qəbul edilmiş qərarın dəqiq və səlis ifadə olunmuş mətni.

4.1.21. Səhmdarın tələbi ilə protokolun surəti ona təqdim edilməlidir.

4.1.22. Ümumi Yığıncağın qərarları Cəmiyyətin bütün orqanları tərəfindən qeyri-şərtsiz icra edilir.

Ümumi Yığıncağın gündəliyinə daxil edilməmiş məsələlər üzrə qərar qəbul edə bilməz.

4.1.23. Ümumi Yığıncaq tərəfindən qəbul edilmiş qərarlar on beş təqvim günündən gec olmayaraq səhmdarlara elan edilməlidir.

4.1.24.Ümumi Yığıncağın qərarından səhmdar məhkəməyə şikayət edə bilər.

4.1.25.Ümumi Yığıncağın bütün iclasları protokollaşdırılır, yığıncaq bitdikdən sonra üç iş günündən gec olmayaraq iki nüsxədə tərtib olunur, Ümumi Yığıncağın sədri və katibi tərəfindən imzalandıqdan sonra Cəmiyyətin möhürü ilə təsdiq edilir və hər il üzrə uçotu aparılır. Protokol 2 səhifədən artıq olduqda tikilməlidir.

**4.2 Müşahidə Şurası:**

4.2.1. Cəmiyyətin müşahidə şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

4.2.2. Cəmiyyətin Müşahidə Şurası 3 (üç) nəfərdən az və ya 7 (yeddi) nəfərdən çox olmamaqla, Azərbaycan Respublikasının müvafiq qanunlarının tələblərinə uyğun olaraq, seçilmiş üzvlərdən ibarətdir.
4.2.3. Müşahidə Şurasının üzvləri Cəmiyyətin Səhmdarlarının Ümumi Yığıncağı tərəfindən səhmdarlardan və/və ya kənar şəxslərdən 3 il müddətinə təyin edilən fiziki şəxslərdir. Şuranın üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər.
4.2.4. Səhmdarların Ümumi Yığıncağı Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini təyin edir.
4.2.5. Müşahidə Şurası üzvlərinin muzdu Cəmiyyətin bölüşdürülməmiş mənfəətinin faizi şəklində və ya əmək haqqı formasında Səhmdarların Ümumi Yığıncağında təyin edilə bilər.
4.2.6. Cəmiyyətin müşahidə şurasının sədri onun iclasları üç ayda bir dəfədən az olmayaraq çağırır və iclaslara sədrlik edir. Hər bir zaman Cəmiyyət Müşahidə Şurasının əcnəbi üzvləri üçün sinxron tərcümə təşkil etməlidir.
4.2.7. Cəmiyyətin icra orqanının və ya şura üzvlərinin tələbi ilə də müşahidə şurasının iclası müşahidə şurasının sədri tərəfindən çağırılır. Müşahidə Şurası onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.
4.2.8. Müşahidə Şurasının qərarları iclasda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Müşahidə Şurasının hər bir üzvü bir səs hüququna malikdir. Müşahidə Şurası üzvlərinin səsvermə zamanı birtərəf qalmasına icazə verilmir. Müşahidə Şurasının iclaslarında hər hansı bir məsələ üzrə səsvermədə səslər bərabər olduqda, Müşahidə Şurası sədrinin səsi həlledici sayılır.
4.2.9. Cəmiyyətin Müşahidə Şurasının rəhbəri və ya üzvləri özlərinin və Qanunvericilikdə göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar olaraq öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Cəmiyyətin səhmdarlarına yazılı şəkildə təqdim etməlidirlər.
4.2.10. Cəmiyyətin Müşahidə Şurasının səlahiyyətlərinə aşağıdakılar aiddir:

- Cəmiyyətin idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, Cəmiyyətin İcra Orqanından hesabat almaq;
- Mənfəət və dividend paylarını bölüşdürmək məsələləri daxil olmaqla, Səhmdarların ümumi yığıncağı və İcra Orqanı üçün tövsiyələr vermək;
- Cəmiyyətin strategiyasını təyin etmək və ona əhəmiyyətli genişlənmə, azalma və ya ayrı bir dəyişiklik etməklə bərabər Cəmiyyətin baxışını və missiyasını təyin etmək;
- Cəmiyyətin işgüzar məqsədinə və ya mühasibat prinsiplərinə hər hansı əsaslı dəyişiklik etmək;
- Cəmiyyətin siyasətini qəbul edib ona dəyişikliklər etmək və Cəmiyyətin reqlamentini qəbul etmək və reqlamentə əlavə və dəyişikliklər etmək;
- Cəmiyyətin illik büdcəsini qəbul və təsdiq etmək;
- Səhmdarların hər bir Növbəti Ümumi Yığıncağının keçirilməsi barədə məlumatı səhmdarlara bildiriş göndərmək yolu ilə çatdırmaq və səhmdarların tələbi ilə İcra orqanı tərəfindən çağırılan növbədənkənar yığıncaqların gündəliyi istisna olmaqla, hər bir ümumi yığıncağın gündəliyini qəbul etmək;
- Cəmiyyət tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə, bu pozuntu barəsində Səhmdarların Ümumi Yığıncağını və İcra Orqanını xəbərdar etmək;

- Cəmiyyətin siyasətini, habelə ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;
- Cəmiyyətin illik büdcəsinin və biznes-planının yerinə yetirilməsinə nəzarət etmək;
- Filiallar və nümayəndəliklər yaratmaq, onların fəaliyyətlərinə xitam vermək və əsasnamələrini təsdiq etmək;
- Cəmiyyətin etibarlı və prudensial idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları və daxili əsasnamələri qəbul etmək;
- Ümumi Yığıncaqda Nizamnaməyə dəyişikliklər qəbul etmək üçün təkliflər hazırlamaq;
- Ümumi Yığıncaqda nizamnamə kapitalının artırılması və azaldılması üçün təkliflər hazırlamaq;
- Cəmiyyətin fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərar qəbul etmək;
- Kənar və daxili auditorların, habelə yoxlayıcı orqanların yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;
- Maliyyə ili ərzində Cəmiyyətin biznes fəaliyyətinə dair məruzələri və illik maliyyə hesabatlarını və məruzələrini müzakirə edib təsdiqləyərək Ümumi Yığıncağa təqdim etmək;
- Ümumi Yığıncaqda qəbul edilməsi üçün Cəmiyyətin birləşməsinə, ləğv edilməsinə və ya fəaliyyətinin dayandırılmasına dair təkliflər hazırlamaq;
- Törəmə müəssisəsinin nizamnaməsində başqa hal nəzərdə tutulmayıbsa, törəmə müəssisələrinin rəhbərlərini vəzifəyə təyin və azad etmək;
- Törəmə müəssisələrinin rəhbərlərini vəzifəyə təyin və azad edilməsi barədə Səhmdarların Ümumi Yığıncağına hesabat vermək;
- Cəmiyyətin iştirakçısı olduğu hüquqi şəxslərin təsisçilərinin (səhmdarların) ümumi yığıncaqlarında iştirak edəcək nümayəndəni və onun səlahiyyətlərini müəyyən etmək;
- Digər hüquqi şəxslərin kapitalında Cəmiyyətin iştirakı barədə qərarlar qəbul etmək;
- Növbəti və tələb olunduğu hallarda, növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin və ya azad etmək;
- Aidiyyəti hüquqi şəxslərin (törəmə müəssisələr istisna olmaqla) yaradılması, yenidən təşkil edilməsi və ya ləğv edilməsi barəsində qərarlar qəbul etmək;

4.2.5. Cəmiyyətin müşahidə şurasının və ya onun üzvünün səlahiyyətinə vaxtından əvvəl xitam verilməsi ümumi yığıncağın qərarı ilə həyata keçirilə bilər.

**4.3 Direktor:**

4.3.1 Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi təkbaşına icra orqanı olan Direktor həyata keçirir. O səhmdarların ümumi yığıncağına hesabat verir. Cəmiyyətin nizamnaməsi ilə cəmiyyətin digər idarəetmə orqanlarının müstəsna səlahiyyətinə aid edilməmiş bütün məsələlərin həlli cəmiyyətin icra orqanının səlahiyyətinə aiddir. Səhmdarların ümumi yığıncağının qərarı ilə cəmiyyətin icra orqanının səlahiyyətləri müqaviləyə əsasən başqa kommersiya təşkilatına və ya fərdi sahibkara (idarəçiyə) verilə bilər.

4.3.2 Direktor Cəmiyyətlə aralarında bağlanmış əmək müqaviləsinə əsasən fəaliyyət göstərir. Direktorla Cəmiyyət arasında bağlanmış əmək müqaviləsi və əmək müqaviləsinin ləğv edilməsi onun vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsi barədə qərar qəbul edilmiş Ümumi Yığıncaqda sədrlik edən şəxs tərəfindən imzalanır.

4.3.3. Direktorun səlahiyyətinə aşağıdakılar aid edilir:

- Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;
- Cəmiyyətin daxili əmək intizamı qaydalarını, ştat vahidlərini, tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;
- Cəmiyyətin struktur bölmələri haqqında əsasnaməni və Cəmiyyətin əməkdaşlarının vəzifə təlimatını (əmək funksiyasını) hazırlayır və təsdiq edir;
- Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərar qəbul edir və əmrlər (sərəncamlar) verir;
- Cəmiyyətin şəxsi heyətinin təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlayır;
- Cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir;
- Vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlahiyyətləri çərçivəsində çıxış edir, onu istər ölkə daxilində, istərsə də xaricdə bütün dövlət orqanlarında, ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir ;
- Cəmiyyətin adından bütün növ müqavilələr bağlayır, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüququ ilə), banklarda Cəmiyyətin cari və başqa bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarını aparır.

4.3.4. Cəmiyyətin işçilərini işə qəbul edib işdən azad edir, işçilərə həvəsləndirmə tədbirləri tətbiq edir, Cəmiyyətin daxili əmək intizamı qaydalarına və qanunvericiliyə müvafiq olaraq onları intizam məsuliyyətinə cəlb edir.

## 5. Səhmdarların hüquq və vəzifələri

5.1.Cəmiyyətin adi səhminin sahibi olan səhmdarının bu Nizamnamə ilə müəyyən edilmiş qaydada aşağıdakı hüquqları vardır:

- Cəmiyyətin idarə edilməsində Azərbayan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericiliklə və bu nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;
- Bu Nizamnamə və qanunvericiliklə müəyyən edilmiş qaydada, Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
- Ümumi Yığıncağın çağırılmasını tələb etmək;
- Ümumi Yığıncağın gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;
- Ümumi Yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
- Cəmiyyətin xalis mənfəətindən dividend almaq;
- Cəmiyyətin xalis mənfəətindən hər rüb üzrə avans olmaqla dividend almaq;
- Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, Cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq.
- Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq.

5.2.Hər bir səhmdar malik olduğu səhmlərin sayına görə səs huququna malikdir.

5.3. İmtiyazlı səhmlər öz sahiblərinə Cəmiyyətin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq səhmin nominal dəyərinin sabit faizi şəklində dividendlər almasına təminat, Cəmiyyətin ləğvindən sonra qalan əmlak hissəsini almaqda başqa səhmdarlara nisbətən üstünlük hüququ və bu cür səhmlərin buraxılması şərtlərində nəzərdə tutulan digər hüquqlarlı verir. İmtiyazlı səhmlər öz sahiblərinə Cəmiyyətin işlərinin idarə olunmasında iştirak etmək hüququ vermir. İmtiyazlı səhm sahibi Cəmiyyətin yenidən təşkil edilməsi, ləğv edilməsi, səhmdara məxsus olan imtiyazlı səhm növü üzrə hüquqlarını məhdudlaşdıran dəyişiklik və əlavələrin edilməsi məsələləri üzrə qərarların qəbul edilməsi zamanı səs hüququ əldə edir.

## 7. Cəmiyyətin ləğv edilməsi

7.1. Cəmiyyətin ləğv olunması Azərbaycan Respublikasının Mülki Məcəlləsində və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada həyata keçirilir.

## 8. Digər şərtlər

8.1 Bu Nizamnamə ilə tənzimlənməyən məsələlər Ümumi Yığıncağın qərarı və Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir. Bu nizamnamənin hər hansı müddəası qanunvericiliyə zidd olarsa, qanunvericiliyin müddəası tətbiq olunur.

## ***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı və uçot idarəsi***

*Qurumun adı (əvvəlki)* "KollektA" Məhdud Məsuliyyətli Cəmiyyəti

*Qurumun adı (hazırki)* "KOLLEKTA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Qeydiyyata alındığı tarix* 09.10.2024

*Dövlət qeydiyyat № (VÖEN)* 1506966161

*Təşkilati-hüquqi forması (əvvəlki)* Məhdud məsuliyyətli cəmiyyət

*Təşkilati-hüquqi forması (hazırki)* Açıq səhmdar cəmiyyəti

*Sahibkarlıq subyektinin meyarı* Orta sahibkar

*Hüquqi varislik* "KOLLEKTA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ 09.10.2024-cü il tarixdə 1506966161 VÖEN ilə dövlət qeydiyyatına alınmış "KollektA" Məhdud Məsuliyyətli Cəmiyyətinin çevrilməsi nəticəsində yaradılmışdır və onun hüquqi varisidir.

*Çıxarışın verildiyi tarix və №* 20.05.2026, 3-21-2-2-1/2-37593/2026

Cəfərova L.T.

**_İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı və uçot idarəsi_**

*Qurumun adı* "KOLLEKTA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Dövlət qeydiyyat № (VÖEN)* 1506966161

*Maliyyə ili* 1 yanvar-31 dekabr

*Hüquqi ünvanı* AZ1052, BAKI ŞƏHƏRİ NƏRİMANOV RAYONU, ƏHMƏD RƏCƏBLİ, ev 1963

*Nizamnamə kapitalının miqdarı (ödənilmiş)* 4,100.00 manat

*Təsisçilər və nizamnamə kapitalında mayalarının miqdarı*
SƏLİMOV RƏŞAD MAİS OĞLU - 20 %, RÜSTƏMOV MƏDƏD NADİR OĞLU - 40 % və AYDINOV CAMAL İSAX OĞLU - 40 %

*Müşahidə şurasının üzvləri* SƏLİMOV RƏŞAD MAİS OĞLU, MƏMMƏDOV NAHİD KAMANDAR OĞLU, MƏMMƏDOV AKŞİN YUSİF OĞLU

*Çıxarışın verildiyi tarix və №* 20.05.2026, 3-21-2-2-1/2-37593/2026

Cəfərova L.T.

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı və uçot idarəsi***

*Qurumun adı* "KOLLEKTA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Dövlət qeydiyyat № (VÖEN)* 1506966161

*Qanuni təmsilçi (əvvəlki)* SƏLİMOV RƏŞAD MAİS OĞLU

*Qanuni təmsilçi (hazırki)* VƏLİYEV RAMİL VƏLİŞ OĞLU

*Çıxarışın verildiyi tarix və №* 20.05.2026, 3-21-2-2-1/2-37593/2026

Cəfərova L.T.

*Qeydiyyat orqanının adı* Hüquqi şəxslərin dövlət qeydiyyatı və uçot idarəsi

*Qurumun adı* **"KOLLEKTA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

*Ünvanı* AZ1052, BAKI ŞƏHƏRİ NƏRİMANOV RAYONU, ƏHMƏD RƏCƏBLİ , ev.1963

*Qeydiyyata alındığı tarix* 09.10.2024

***Hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30.04.2007-ci il tarixli Fərmanına əsasən 'bir pəncərə' prinsipi ilə dövlət qeydiyyatına alınmışdır.***

**№(VÖEN) 1506966161**

**Cəfərova Lalə Tahir qızı**

Qeydiyyat orqanının rəhbəri 20.05.2026